# HƏYATIN QAYĞILI ÜZÜ

## *Ananın roman həyatından səhifələr...*

Müharibənin acı küləyi hər qapıdan keçirdi. Müqaviməti olmayan, dözümü çatmayan gücü tükənən hər kəs bu acı küləyin qabağında sovrulub yoxluğa gömülürdü. Hər kəs istəyirdi ki, öz evini, ailəsini, balalarını bu acı küləkdən, onun vaxtsız, vədəsiz gətirdiyi bəlalardan qoruya bilsin.

Bəri başdan onu demək yerinə düşərdi ki, Fatma Həsənqızının "Acılı-şirinli günlər" sənədli romanında müharibə dəhşətlərinin acı mənzərəsi kifayət qədər öz əksini tapıb. Doğrudur, bu əsərdə od-atəş altında vuruşan əsgərlərin taleyindən söhbət açılmır, amma onları cəbhəyə göndərən ailələrin düçar olduğu fəlakətlər, çətinliklər, dərdlər, bəlalar kifayət qədər bu əsərdə görünür. Şübhəsiz, müəllif əsərinin baş qəhrəmanı Şəddat Cəfərovun tale yolunu yazıya gətirərkən onun ilk addımlarını attdığı günlərin acı mənzərəsinə də xüsusi diqqət yetirir. Çünki, hər bir şəxsiyyətin formalaşmasında klassik pedaqoqlar demiş "ana qucağı məktəbinin" (Y.A.Komenski) xüsusi rolu var. Bu "ana qucağı məktəbinin" kamilliyi istər-istəməz uşağın gələcək həyatının doğrudüzgün qurulmasında əsas istinaddır. Əgər belə demək mümükünsə, Şəddat Cəfərovun ilk "ana qucağı məktəbi" kifayət qədər yetkin idi. Çünki bu məktəbin əsas idarəedicisi bütün varlığı ilə övladlarına - bir sözlə, mənsub olduğu ailəyə bağlı olduğundan onun işi, əməli başdanbaşa övladlarının qayğısına yönəlik idi.

Nəsibə ana yaxşı görürdü ki, az-çox qayğıdan məhrum olan uşaqlar necə məhv olur, başı pozuq böyüyür. Oğurluq, əli əyrilik, tərbiyə qüsurları, istiqamət verilməyən, xüsusi nəzarəti olmayan uşaqları bədbəxtliyə düçar edirdi. Ona görə də Nəsibə ana uşaqlarını bir anda olsun diqqətdən kənar qoymurdu. Baxmayaraq ki, o gündüzlər kolxozda çalışır, ağır çəltikçi əməyinə qatlaşmalı olurdu. Çəltikçiliklə məşğul olanlar yaxşı bilirlər ki, təsərüfatın bu sahəsinin özünəxas xüsusiyyətləri var. Səhərdən axşamacan rütubətin, palçığın içində əlləşməlisən. Əkilən şitillərin tutmasına qayğı göstərməlisən. O vaxt deyirdilər ki, çəltik əkibbecərmək uşaq böyütmək kimi çətin bir işdir.

Ağır zəhmətin, rütubətin təsirindən Nəsibə ananın səhərə qədər canı ağrılardan sızıldayırdı. Amma o bütün bunların heç birisini - nə yorğunluğunu, nə ağrılarını balalarına sezdirmirdi, bildirmirdi. Onun bircə amalı vardı; uşaqları aclığın, səfalətin ağzından xilas etmək, qorumaq... Bütün bunların hamısının yaratdığı acı təəssüratı "Acılı-şirinli günlər" romanından oxuya bilirik. Müəllif dövrün ağırlığını kənd həyatı ilə bağlı ən adi epizodlarla verə bilir. Və gözlərimiz önündə bir ailənin müharibə dövrü həyatını səmimi yazısı ilə canlandırır.

Kənddə yaşayanlar yaxşı bilirlər ki, ailənin dolanışığı üçün çörək, tərəvəz nə qədər vacibdirsə, ağartı məhsulu da bir o qədər gərəklidir. Pis-yaxşı Nəsibə ananın balalarını daldalamaq üçün ailənin dədəbaba yurdunda vaxtı ilə böyük dam-daş evin yerində bir daxma qurulmuşdu. Özü də təsərüfatda çalışmaqla qazanc gətirə bilirdi. Böyük oğlu Xudadat həyət-bacada olan işləri görməyə qadirdi. Hələ üstəlik kiçik bacısına və qardaşlarına da nəzər yetirirdi. Nəsibə ana necə olur olsun bir inək almaq məqsədi ilə ehtiyyat görmüşdü. Nəsibə ananın həyat yoluna işıq salan hekayətlərdən biri "Ailənin sevinci" adlanır. Həmin hekayətə xüsusi diqqətlə nəzər yetirmək bəs edir ki, bir ana həyatının romana bənzər səhifələrini bütün miqyası ilə dərk edək: "Mart ayının axırları idi. Bir neçə gündən sonra qadınlar çəltik əkməyə başlayacaqdılar. Əkin vaxtı işlər daha da artırdı. Belə vaxtlarda kolxozçunun ev işləri ilə məşğul olmağa bir dəqiqə belə vaxtı olmurdu. Kənd həyatına yaxşı bələd olan Nəsibə bəzi vacib işlərini qabaqcadan görüb qurtarmışdı. O vacib işlərdən biri də, evə bir inək almaq və ailəni ağartı ilə təmin etmək idi. Bu məqsədlə bir qədər pul da yığmışdı. Üstəlik qızıl üzüyünü də satmışdı. Lakin kənddə inək satan olmadığını görəndə Masallıya "Həftə bazar"ına getməyi qərara aldı". Lənkəran rayonunun Gərmətük kəndindən qonşu Masallının həftə bazarına piyada getmək o qədər də asan deyildi. Az qala gərək gecə yarısından sonra səhərə qədər yol gedəsən ki, mənzil başına yetəsən.

Əsərin bu yerində Nəsibə ana obrazının təbiəti ana mərdliyi, ailəyə sədaqət baxımından qadınlıq dəyanəti bizim yaddaşımızda Mir Cəlalın "Bir gəncin manifesti" əsərinin əsas qəhrəmanı Sona ananı xatırladır. Sona da övladlarını aclıq bəlasından xilas etmək üçün öz əlləri ilə toxuduğu xalçanı bazara çıxarır. Bu onun sonuncu ümidi idi.



*Nəsibə ana*

Yazıçı Fatma Həsənqızının da qeyd etdiyi kimi Nəsibə ana da sonuncu ehtiyyatını vaxtı ilə ərinin ona bağışladığı qızıl üzüyü də dəyər-dəymәzinə satıb inək almaq qərarına gəlmişdi. Əlbəttə, onun üçün övladlarını xilas etmək dünyanın bütün ziynətlərindən daha üstün idi.

Bir dəyərli inək almaq Nəsibə üçün o qədər də asan deyildi, amma buna baxmayaraq onun mənəvi mühitində insanların ləyaqətinə inam vardı. Əsərdə onun inəyi almaq səhnəsi çox yadda qalan detallarla verilib: "O, bir gün sübh tezdən durub, Xudadatı da özüylə götürdü. Paypiyada qonşu rayona yollandı. Yol çox uzaq olduğundan onlar gecikdilər, bazarın dağılan vaxtına gəlib çıxdılar. Nəsibə bazarda öz axtardığını görmədikdə, çox pərişan oldu. Təəssüflə oğluna dedi:-Anan qurban, biz gərək lap gecədən yola düşəydik. Deyəsən, bu qədər yolu nahaq gəlmişik. Heç bilmirəm evə, uşaqların yanına əliboş necə qayıdacağam? Balalarım ağartı üzünə həsrət qalıblar". Bu adi düşüncələr deyil, bu adi qayğılar deyil, bu, əsl ana fədakarlığıdır.

Yazıçı da bu fədakarlığı elə ananın öz düşüncələri ilə həyata, realliğa uyğun təqdim edir: "Ancaq yaxşı adamlar hər yerdə olduğu kimi, bazar adamları arasında da tapıldı. İnək satan bir kişinin evini Nəsibəyə nişan verdilər. Nəsibə həmin evə getdi, həyətə girib gəlişinin səbəbini bildirdi.Ev yiyəsi əvvəl satdıq inəyi olmadığını söylədi. Lakin Nəsibənin uzaqdan payi-piyada gəldiyini, əsgər ailəsi və dörd uşaq anası olduğunu eşidəndə, deyəsən ürəyi yumşaldı. O, şələ bığlarını eşəeşə qalın səslə dedi:-Yaxşı, bacı, görürəm çox narahatsan, qəm yemə. İki inəyim var. Doğrusu, satmaq fikrində deyildim. Ancaq balalarının yanına əliboş qayıtmağına qıymıram, - bunu deyib inəksatan kişi tövləyə girdi. Az keçmədi ki, dediyi inəyi bayıra çıxartdı. Gah inəyə, gah da Nəsibəyə baxa-baxa dedi, bu da sənə satacağım düyə. Bir həftəyə, on günə doğacaq. Cins maldır. Bu cins malların südü çox, həm də yağlı olur. Götür apar, Allah xeyir versin!

Nəsibə sevincindən özünü saxlaya bilmədi. Ağlamsındı,lakin halını ətrafdakılara bildirməmək üçün yaşmağını burnuna çəkdi. Tez qurşağından pul kisəsini çıxarıb kişiyə verdi.-Çox sağ ol, qardaş. Allah ürəyinə görə versin! Ömrün uzun olsun! - Sonra Xudadata tərəf döndü. - İnəyin ciyəsini tut, gedək, bala. Yolçu yolda gərək, yoxsa qaranlığa düşərik".Nəsibə ananın inəyi almaq üçün yaşadığı həyəcanlar onun ümüdləri haqqında insanlara inamı barədə kifayət qədər təsəvvür yaradır. Sovulmuş bazardan əliboş qayıtmaq təhlükəsi ilə üzləşən Nəsibə ananın yaşadığı həyəcanlar insani dəyərlərin ağır sınaqlara baxmayaraq qoruna bilməsinə ən yaxşı sübutdur. Qarşısına çıxan adamın ona düzgün istiqamət verməsi göstərir ki, yazıçının özü demiş dünya yaxşı adamlardan xali deyil.

Beləliklə, Nəsibə ana üz tutduğu həyətin qapısını ürəyi əsə-əsə döyürsə, bu onun övladlarına qayğısı ilə bağlı duyğulardır. Özü yaxşı bilirdi ki, nə deməkdir. Müxtəlif səbəblərdən - axı ehtiyac o qədər çox idi ki, topladığı vəsaiti dağıda bilərdi. Amma qarşısına çıxan ləyaqətli adam onu ən yaxşı ünvana göndərir. Əsərdən aldığımız təəssüratdan belə başa düşürük ki, inəyi satan şəxs də halal adamdır. Həttə, onun inək satmaq fikri olmasa da, oğlu ilə qapısına gəlmiş ananın ehtiyacını yaxşı başa düşür, onu naümid geri qaytarmaq istəmir. İnəyi Nəsibə anaya təhvil verərkən dediyi sözlər də əslində onun halallığı ilə bağlıdır.

Ana və oğlu çətinliklə piyada gəldikləri yolu indi də piyada geriyə qayıtmalıdırlar. Müəllifin təqdimindən səfərin bu hissəsi də kifayət qədər təəssirli epizod kimi unudulmur: "Beləliklə, Xudadat inəyin buynuzlarında ilməklənən ciyənin ucunu əlinə aldı, yola düzəlib heyvanı dalınca dartdı. Nəsibə də əlinə bir heyva çubuğu alıb, inəyi nazlaya-nazlaya sürməyə başladı. Nəsibəgil evə çatanda artıq qaranlıq qovuşmuşdu. Kənd sakinləri çoxdan ev-eşiyinə yığışmışdılar. Bəzi evlərdən işıq gəlmirdi, yatmışdılar. Qadın qaranlığa düşdüyündən, yorğun olduğundan narahat olmurdu. Xudadat yorulub əldən düşdüyünə görə ananın ürəyi ağrıyırdı. Bir də ki, azyaşlı balaları evdə tək qalmışdılar. Görəsən necədilər, qorxub ağlamırlar ki? - deyə nigaran-nigaran fikirləşir, ürəyindən qara qanlar axırdı". Yol boyu ananın yaşadığı hisslər oxucu yaddaşından heç vaxt silinmir. Kiçik yaşlı uşaqların evdə bir növ başsız qalması özü bir təhlükə idi. Ana bir günlüyə övladlarından ayrılsa da, əslində düşüncələri ilə balalarının yanında idi. Onlardan bir an da ayrılmamışdı. Ana üçün dünyanın mərkəzi indi onun öz evi idi. Balalarının daldalandığı ev. O ev ki, orada ərinin - müharibədə olan Muğdatın işığı yanırdı. Bir vaxt kəndin ən hörmətli, nüfuzlu sakini olan qaynatası Hüseyn kişinin, qaynanası Ağabanunun isti nəfəsi hələ də bu yurddan çəkilib getməmişdi. İndi həyətə qayıdanda sanki, evdən gələn işığı görməsi ilə dünyanın ən üstün xoşbəxtliyinə çatmışdı. Hekayətin bu yerində ana-bala ünsiyyətinin ailə həyatının ən doğma mənzərəsini görürük: "Onlar həyətə girdilər, evlərindən lampa işığı gəlirdi. Xudadat dedi:-Ana, görürsənmi, Şəddat hələ də yatmayıb". Şəddat çox kiçik olduğu üçün digər uşaqlar da məhz ona görə yata bilmirlər. Uşaq isə istər-istəməz ana qucağının intizarını çəkir. Onu görmədən, onun isti nəfəsini duymadan gözlərinə yuxu gedə bilməz. Nəsibə ana bunu yaxşı başa düşür: "-Hə, ay oğul, bizi gözləyir. Bilirsən ki, bizsiz gözlərinə yuxu getmir. - Nəsibə ana oğlu Xudadata dediyi sözlərdən sonra inəyin ciyəsini qabağındakı armud ağacına bağladı. Tez vedrədə su gətirib qabağına qoydu. İnək yol gəldiyindən bərk susamışdı. Vedrədəki suyun hamısını içdi. Xudadat qabaqcadan hazırladığı küləş topasından bir qucaq gətirib inəyin qabağına tökdü.

Nəsibə inəyə soyuq olacağından ehtiyat edərək köhnə adyalla onun belini örtdü. İnək sakitcə küləşdən bir çəngə ağzına alıb, gövşəməyə başladı". Burada ən xırda cizgi belə bu ailənin ana qayğısından keçən mənzərəsini dəqiq göstərir. Ana indi artıq daxili bir məmnunluq hissi keçirir. Çünki tezliklə övladlarını ağartı ilə təmin edə biləcəkdi. Onun nəzərində ağartı övladlarının sağlamlığı deməkdi. İndi o çox inanırdı ki, xəstəlik balalarına yaxın gələ bilməyəcək. Amma əsas o idi ki, ana az qala aylara bərabər olan bir günün ayrılığından sonra balalarına qovuşmuşdu. Balaca Şəddat anasını görüb sevinirdi. Çünki ana qucağında olanda özünü əmin arxayın, təhlükəsiz bilirdi. Bəli, indi Nəsibə ana övladları üçün və həm də demək balaca Şəddat üçün təkcə ana yox, həm də ata əvəzi idi. O, övladlarına bütün varlığı ilə elə qayğı göstərirdi ki, onlar müharibədə olan atalarının yoxluğunu hiss etməsinlər: "Həyətdə səs eşidən Şəddat tez dəhlizə çıxdı: -Ana, gəlmisən? - deyə kövrək halda soruşdu". Bu sözlər uşağın ümidlərinə qovuşmasının sevinclərini əks etdirir. Ananın övlad üçün nə demək olduğunu bir daha aydınladır. Ananın qollarını açıb balaca Şəddatı qucaqlamasının özü də yaşanan xoşbəxtlik anlarının ən yaxşı görüntüləridir: "Nəsibə ana elə Şəddatın özü qədər sevinərək dillәndi: -Anan qurban, gəlmişik. Bir bax, sənə inək alıb gətirmişik. Bir neçə gündən sonra südümüz də olacaq, - deyə Nəsibə oğlunu qucağına alıb, inəyin yanına gətirdi. - Gör nə qəşəng inəkdir!". Ümidlər yaz çiçəklərinə bənzəyir. Ümidlərin də özünəməxsus təravəti, qoxusu var. İndi Şəddat ana qucağında bu qoxunu hiss edir, duyur. Bir ailənin yaşayacağına ümid verən inəyin yanına gəlirlər: "Şəddat sevinə-sevinə əlini inəyin alnına sürtdü. Sevincdən şirin-şirin güldü və qollarını geniş açıb, anasının boynunu bərk-bərk qucaqladı". Həyatın ən böyük dəyəri qırılmayan ümidlərlə bağlıdır. İnsan nə qədər ümidlərinə sığınırsa, bir o qədər də yaşamaq, mübarizə aparmaq gücündə olur. Yazıçı Fatma Həsənqızının qənaəti də elə bu amallar üzərində özünü diktə edir.

Bu da həyatın qayğılı üzündən daha bir görüntü idi. Bəlkə də, bir ananın roman həyatından heç vaxt unudulmayacaq səhifələrdir...

***Ə.R.XƏLƏFLİ***
***06.05.2021***